Ağ Evin qara planları

Dünyada demokratiya və insan hüquqlarına ən böyük təhdid ABŞ-dən gəlir

Dünyada son onilliklərdə baş verən məlum hərbi qarşıdurmalar, ziddiyyətlər, qlobalmiqyaslı siyasi-iqtisadi kataklizmlər, eləcə də 30 illik absurd "nizamlama" prosesinə məruz qalan keçmiş Qarabağ münaqişəsi bir daha sübut etdi ki, beynəlxalq münasibətlər sistemində ədalət anlayışı ancaq kağız üzərindədir.

Əgər ədalət real zəmində olsaydı, dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin qəbul etdiyi qətnamələr 30 il icrasız qalmazdı.

Ermənistanın işğalçı olduğunu təsdiqləyən beynəlxalq sənədlərə əsaslanmaqla Azərbaycanın ərazi bütövlüyü heç bir savaş olmadan həll edilərdi.

Haqlı olan Azərbaycana daim ikili standartlar prinsipi ilə yanaşılmazdı.

İşğala, qətliamlara məruz qalan Azərbaycanın haqq səsi eşidilərdi.

Təkcə bu faktlar göstərir ki, böyük güclərin, beynəlxalq təşkilatların kiçik dövlətlərə daim aşıladıqları "ədalət prinsipi" yalnız sözdə olur, əməldə yox…

Vaşinqton erməni lobbisinin dəstəkçisi rolunda

Bu savaş həm də onu göstərdi ki, ədaləti pozan elə böyük güclərdir. Digər dövlətlərə tələb etdikləri suveren bərabərlik, zor işlətməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, münaqişələrin dinc yolla həll olunması, bir-birinin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlara hörmət, beynəlxalq müqavilə öhdəliklərinin vicdanla yerinə yetirilməsi və digər bu kimi prinsiplərə özləri zərrə qədər də əməl etmirlər. 30 il ərzində Azərbaycanın haqq səsini eşitməyən beynəlxalq təşkilatların, fövqəldövlətlərin ölkəmizə qarşı daim ikili standartlar prinsipi ilə yanaşması bunu təsdiqləyən reallıqdır. Bu prosesdə aktiv rol oynayan dövlətlərdən biri də Amerika Birləşmiş Ştatlarıdır. Sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən Ağ Ev bütün zamanlarda erməni lobbisi ilə iş birliyində olub.

Bunu, ABŞ Konqresinin keçmiş sovet respublikalarına dövlət yardımını tənzimləyən "Azadlığı Müdafiə Aktı" adlı qanuna etdiyi 907-ci düzəliş də təsdiqləyir. Bu düzəlişə əsasən ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərməsi qadağan olundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünü müdafiə edən ABŞ-nin güclü erməni icması bu qanunun qəbul olunmasına böyük təsir göstərdi. Konqresmenlər erməni icmasının və lobbisinin birtərəfli məlumatlarına, təbliğatına görə 907-ci düzəliş üçün Azərbaycanın münaqişədə olduğu Ermənistanı guya blokadada saxlaması, Dağlıq Qarabağ ermənilərinə qarşı zorakılıq işlətməsi səbəblərini əsas kimi qəbul etdilər. Qanunun qüvvəyə mindiyi 1993-cü ilin yanvarına qədər isə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağda nəzarətdə saxladığı son şəhəri Şuşanı, vilayətdən kənardakı Laçın rayonunu işğal edib, Xocalı şəhərində əsrin faciəsini törətdilər.

Bu tarixi faktlara rəğmən ABŞ hər zaman işğalçıya dəstək oldu və hətta BMT-nin keçmiş 4 qətnaməsinin icrasının yerinə yetirilməsi məsələsi bir dəfə də olsun gündəmə gətirilmədi. Beynəlxalq təşkilatların, böyük güclərin susqunluğu, ATƏT-in keçmiş Minsk qrupunun fəaliyyətsizliyi sayəsində dünya 30 il ərzində Azərbaycanın haqq səsini eşitmək üçün kar oldu.

Ümumiyyətlə, ABŞ bütün zamanlarda özünü hegemon dövlət kimi aparmaqla yanaşı, digər ölkələrin daxili işlərinə kobud müdaxilələr edir, təcavüz, manipulyasiya siyasəti həyata keçirir. Bu gün jandarm siyasəti aparan ABŞ-nin Latın Amerikasında, Afrikada və Yaxın Şərqdə aşıladığı "demokratiya", "ədalət" həmin ölkələri yalnız məhvə sürükləyir desək, yanılmarıq.

Elə bu səbəbdəndir ki, dünya xalqları arasında keçirilən çoxsaylı sorğularda müxtəlif qitələrdə yaşayan insanların mütləq əksəriyyəti ölkələr içərisində ən çox ABŞ-ni düşmən kimi qəbul etdiklərini göstəriblər.

ABŞ-nin Azərbaycana qarşı qərəzli böhtan kampaniyası

Bu, bir həqiqətdir ki, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dünyanın "ədalət" adlandırdığı beynəlxalq hüquq və prinsipləri dəstəkləyən ölkələrdən biridir. Ölkəmiz 30 il əraziləri işğal altında olmasına baxmayaraq, keçmiş Dağlıq Qarabağ münaqişəsinin daim sülh yolu ilə həllinə çalışıb. Lakin dünyanın ədalətsizliyi, ikili standartlar prinsipi ilə üzləşən Azərbaycan sonunda güc yolundan istifadə etməklə ədaləti bərpa edib.

Beynəlxalq təşkilatların, xüsusən də BMT və ATƏT-in siyasi yolla həll edə bilmədiyi problemi Azərbaycan dövləti, onun Müzəffər Ali Baş Komandanı İlham Əliyev cəmi 44 günə aradan qaldırdı. İndi isə Ermənistanın 30 ildə xarabalığa çevirdiyi şəhər və qəsəbələrimizi, kəndlərimizi yenidən qurur, dağıdılmış tarixi-dini abidələrimizi, mədəniyyət ocaqlarımızı öz gücünə bərpa edir.

Bu gün Cənubi Qafqazın lider dövləti kimi regionda sülhün, təhlükəsizliyin təmin olunmasını həyata keçirdiyi siyasətin prioritetinə çevirən İlham Əliyev qalib komandan kimi Ermənistana sülh müqaviləsi təklif edib. Amma Hayastan rəhbərliyi sözdə Azərbaycanın ərazi bütövlüyünü, Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləsə də, bunu əməldə, kağız üzərində tətbiqindən boyun qaçırır. Son günlərdə isə siyasi şantaja əl atmaqla, müxtəlif manipulyasiyalarla sülh danışıqları prosesinə əngəl yaradır.

ABŞ daim ikili standartlar siyasəti yürüdüb. Sözü və əməli heç vaxt üst-üstə düşməyib. Son günlərdə baş verən hadisələr bunu bir də təsdiqləyir. Məsələn, ABŞ Dövlət katibi Antoni Blinkenin İlham Əliyevlə apardığı telefon danışıqlarındakı fikirlərinə nəzər yetirək. Bütün danışıqlarda Blinken ABŞ-nin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edib. Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub. Lakin bu münasibətin ardınca ABŞ ənənəsinə sadiq qalaraq ikili oyun oynayır. Belə ki, Dövlət Departamentinə yaxın "Vaşinqton post" və digər media orqanlarında yenidən Azərbaycana qarşı böhtan kampaniyasına start verilib. Əslində, bu, ABŞ-nin regional maraqlarına uyğun deyil, çünki Azərbaycan regionun şəksiz lideridir və etibarlı tərəfdaşdır, bütün regional layihələrin təşəbbüskarı və əsas icraçısıdır. Rəsmi Bakının apardığı müstəqil xarici siyasət regionda sabitlik və sülhün bərqərar olmasına yönəlib, bu isə məntiqlə ABŞ-nin də maraqlarına cavab verməlidir. Amma görünür, bu ölkənin bəzi dairələri fərqli düşünür.

Azərbaycanla təmaslar zamanı ABŞ rəsmiləri belə təsəvvür formalaşdırmağa çalışırlar ki, bu ölkədə antiazərbaycançı mövqe ayrı-ayrı konqresmenlərin lobbiçilik fəaliyyəti ilə məhdudlaşır. Amma əslində, ABŞ Dövlət Departamentinin, bu ölkənin beynəlxalq təşkilatlardakı nümayəndəliklərinin, departamentin qeyri-rəsmi "mətbuat orqanı" kimi tanınan nəşrlərin mütəmadi olaraq Azərbaycana qarşı qərəzli və riyakar mövqe nümayiş etdirirlər.

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin hər il açıqladığı dünyada dini azadlıqların vəziyyətinə dair hesabatları buna misaldır. Bu hesabatlarda hər zaman Azərbaycanla bağlı ildən-ilə təkrarlanan həqiqətdən uzaq iddialar öz əksini tapır. Amma həmin sənədlərdə Ermənistanda vaxtilə dövlət tərəfindən qeydiyyatdan keçmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktları göstərilmir. Bəs, bu faktlara niyə göz yumulur?

Əgər həqiqəti açıqlayırsansa, hər şeyi olduğu kimi təqdim etməlisən. Ermənistanla bağlı faktların açıqlanmaması açıq-aydın qərəzliliyin göstəricisidir.

Digər bir misal isə ötən ilin sentyabrında ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri zamanı səsləndirdiyi absurd mesajları göstərə bilərik. Həmin zaman Qarabağdakı revanşist qüvvələr Azərbaycan Ordusunun mövqelərinə hücum etmiş və nəticədə baş verən toqquşmada hər iki tərəf itki vermişdi. Pelosi isə Ermənistanda vermiş olduğu absurd mesajlarla ABŞ-nin mövqeyini bir daha göstərdi.

Şuşaya getməyən səfir, quldur Bako Saakyana verilən viza

Qarabağ münaqişəsi başa çatdıqdan sonra Azərbaycan bütün ölkələrə, diplomatik korpuslara müraciət edərək onları erməni barbarlığına şahidlik etmək üçün Qarabağ və Şərqi Zəngəzura dəvət etdi. Qısa zamanda dünya əsl erməni vəhşiliyini gördü və Azərbaycanın haqlı olduğu sübuta yetirildi. Amma ölkəmizdəki diplomatik korpusların, səfirlərin Şuşaya səfəri təşkil edilərkən ABŞ-nin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri bundan imtina etdi. Hətta bu addımına şərh də verməkdən yayındı.

ABŞ-nin ölkəmizə qarşı daim ikili standartlarla yanaşmasını təsdiqləyən bir çox faktları göstərmək olar. Məsələn, 4-5 il əvvəl ABŞ-nin Gürcüstandakı səfiri səlahiyyətlərini icra edən Ross Uilson Abxaziya və Cənubi Osetiya ilə bağlı açıqlama verərək deyir ki, bu məsələdə ABŞ-nin mövqeyi qətidir. Rusiya öz qoşunlarını Gürcüstan ərazisindən çıxarmalı, Gürcüstan öz ərazisi üzərində nəzarəti tam bərpa etməlidir. Amma 2000-2003-cü illərdə ABŞ-nin Azərbaycandakı səfiri olmuş Ross Uilsondan heç vaxt Qarabağın erməni işğalına dair bu cür sərt və prinsipial mövqe sərgilədiyini görmədik.

Abxaziya, Cənubi Osetiya, Krım separatçılarına qarşı sərt qadağalar tətbiq edən Vaşinqton Qarabağdakı separatçı rejimə daim tamam fərqli yanaşdı. Məsələn, Qarabağ işğal altında olan zaman ABŞ-nin Ermənistandakı səfirliyi çox rahat şəkildə quldurların rəhbəri Bako Saakyana və digər quldurlara viza verərək onların sərbəst şəkildə Birləşmiş Ştatlara gediş-gəlişinə imkan yaratdı. Bunun kimi onlarla faktları göstərmək yetərlidir ki, ABŞ-nin Ermənistanla Azərbaycana fərqli "münasibətini" təsdiqləmiş olsun.

Lakin bir faktı nəzərə almaq lazımdır ki, bu gün Azərbaycanla təhdid, təzyiq dili ilə danışmaq qeyri-mümkündür. Bu gün bölgədə diktəni qalib komandan kimi İlham Əliyev edir və Azərbaycanın gücü Prezidentlə xalqın birliyindən, xalqın iradəsindən - Prezidentin qətiyyətindən qidalanır. Prezident dəfələrlə bəyan edib ki, heç kim Azərbaycanla ultimatum dili ilə danışa bilməz.

Ağ Evin "ədalət" oyunu

Ümumiyyətlə, son 10 illiklərdə Ağ Evin yürütdüyü siyasət nəticəsində ABŞ dünyada azadlıq anlayışının jandarmı kimi qəbul olunur. Özünü bəzən "ədalət carçısı" kimi təqdim etməyə çalışan bu ölkədə demokratiya anlayışı onsuz da möhkəm zəminə əsaslanmırdı. Hətta bir çox mütəxəssislər hesab edirlər ki, ABŞ-nin müstəqillik tarixində "demokratiya" - xalqın hakimiyyəti deyə bir anlayış, ümumiyyətlə, mövcud olmayıb. Bu dövlət hər zaman müəyyən bir elitar qrupun - zənginlərin hakimiyyətində olub.

Bu gün ABŞ bütün dünyaya "demokratiya" yaymaq iddiasında olsa da, bu iddianın olduqca ziddiyyətli bir tarixə sahib olduğunu qeyd etmək yerinə düşər. Çünki ABŞ-nin İraq, Əfqanıstan, Suriya kimi ölkələrə "bəxş etdiyi" "demokratiya" uzun illər məhz dünyanın gözü qarşısında baş verib. Üstəlik, ABŞ hər zaman bu demokratiyanı güc hesabına yaymağı özünə rəva bilib. Sadaladığımız bütün hallarda ABŞ-nin iddia etdiyi demokratiyadan əvvəl onun ordusu okeanın bu tayına gəlib.

ABŞ-nin yaymağa çalışdığı demokratiya hər dəfə bəşəriyyət üçün minlərlə insanın ölümü və xaosla nəticələnib. Ən sadə halda isə ABŞ demokratiya adı altında dünyada bir çox çevriliş cəhdinin arxasında dayanan əsas fiqur olub.

Ağ Ev özünü "demokratiyanın beşiyi" adlandırır və azadlıq, insan hüquqları kimi dəyərləri bütün dünyada yaymağı əsas vəzifələrindən biri kimi elan edir. Rəsmi Vaşinqtonun özünü necə adlandırmasından asılı olmayaraq, müasir reallıq, ən əsası isə, "azadlıq ixracı" pərdəsi altında Şərq-müsəlman dünyasına gətirdiyi savaş və iflas ABŞ-nin demokratiyanın təməl prinsiplərindən tam uzaqlaşdığını, həmçinin xalqların suverenlik və seçim hüququna qənim kəsildiyini göstərir. "Demokratikləşmə dalğası"nın əslində yeni ekspansiya hərəkatı və müasir müstəmləkəçilik siyasəti olduğunu bilmək üçün hansısa xüsusi araşdırmalara da lüzum yoxdur.

"Demokratiya çətiri" altında 20-dən çox ölkəyə hərbi müdaxilə

Ekspertlər hesab edirlər ki, demokratiya və insan haqlarını effektli manipulyasiya alətinə çevirmiş rəsmi Vaşinqton son 10 illiklərdə Latın Amerikasında, Afrikada və Yaxın Şərqdə müstəqil siyasət yürüdən dövlətləri vətəndaş qarşıdurması və qanlı toqquşma arenasına çevirib və bu siyasət hazırda da davam edir.

Bu gün Latın Amerikası, Afrika dövlətlərində baş verən hadisələr də bunu təsdiqləyən reallıqdır. Məhz bu cür arzuolunmaz hadisələr, iğtişaşlar, toqquşmalar dövlətlərin tənəzzülünü şərtləndirir. Həyata keçirilən hərbi təcavüzün, hakimiyyət çevrilişlərinin, vətəndaş qarşıdurmalarının, iqtisadi və sosial fəlakətin nəticəsində vaxtilə sabit və normal inkişaf edən İraq, Suriya, Misir, Yəmən və digər dövlətlər yaşamaq üçün təhlükəli ərazilərə çevrildilər, bu ölkələrin yüz minlərlə sakini isə anarxiya, xaos və ölüm təhdidindən yaxa qurtarmaq üçün inkişaf etmiş Avropaya pənah aparmağa başladılar. Ancaq burada da onlar sərt miqrasiya siyasəti, güclü dini və milli ayrı-seçkilik təzahürləri ilə üzləşdilər. Miqrasiya dalğası guya kütləvi qırğın silahının olduğu, amma heç nə tapılmadığı İraqa hərbi təcavüz kimi ağılsız ideyanın nəticəsi idi. Həm də bu, Liviyada, sonra isə Suriyada "qayda-qanun" yaratmaq kimi cəhdlərin reallaşdırılması nəticəsində baş verdi və bunun sayəsində həmin ölkələrin ərazisində terrorçu rejimlər yarandı. Bunlar, əlbəttə ki, ABŞ-nin "demokratikləşmə siyasətinin" ağır nəticələridir.

Ümumilikdə son 30 il ərzində ABŞ başqa ölkələrin ərazisində 20-dən çox hərbi əməliyyatda iştirak edib, tez-tez öz müharibə prinsiplərini və çoxsaylı beynəlxalq müqavilələri pozub. ABŞ qüvvələri ən azı üç ölkədə dövlətçiliyi tamamilə məhv edib, bu dövlətin sayəsində ən azı 10 ölkə suverenliyini itirib, bir milyondan çox mülki şəxs öldürülüb, on milyonlarla insan evlərini tərk etmək məcburiyyətində qalıb. ABŞ-nin Əfqanıstandakı 20 illik hərbi mövcudluğu ölkəni fəlakətli vəziyyətə salıb, İraqı faktiki olaraq parçalayıb, Suriyanı təhrik etdiyi vətəndaş müharibəsi böyük dağıntılar və insan itkiləri ilə nəticələnib, Ukraynanı Rusiya ilə üz-üzə qoyub və nəticədə Avropanın mərkəzində dəhşətli müharibəyə yol açıb.

ABŞ xarici siyasətinin əsl məqsədi daxili kapitalist qruplarının, ilk növbədə hərbi sənaye korporasiyalarının maraqlarını təmin etməkdir və bu halda insan haqlarına riayət olunması onları çox az narahat edir.

ABŞ-nin Əfqanıstandakı 20 illik hərbi mövcudluğu ölkəni fəlakətli vəziyyətə salması ilə nəticələndi. Öz siyasi sistemini Əfqanıstana tətbiq etməyə çalışan rəsmi Vaşinqtonun bu cəhdi uğursuz oldu. Çünki ABŞ qoşunlarının 20 illik mövcudluğu heç bir nəticə vermədi və işğalından əvvəl ölkəyə nəzarət edən radikal qüvvələr yenidən hakimiyyətə qayıtdı.

BMT-nin məlumatına görə, hazırda dünyada ən ciddi ərzaq böhranı məhz Əfqanıstanda müşahidə olunur, bu ölkədə 23 milyondan çox insanın yardıma ehtiyacı var. Əfqan əhalisinin 95 faizindən çoxunun kifayət qədər qidası yoxdur. Belə vəziyyət həm də Amerikanın bu ölkədəki varlığının nəticəsidir. Keçmiş SSRİ-dən fərqli olaraq, ABŞ Mərkəzi Asiya ölkələrində mülki infrastrukturun inkişafı ilə heç vaxt məşğul olmayıb, yalnız hərbi və siyasi amillərə diqqət yetirib.

Vaşinqtonun Yaxın Şərq və Mərkəzi Asiyadakı "qanlı planları"

ABŞ-nin Yaxın Şərq və Mərkəzi Asiyada törətdiyi cinayətlərə diqqət yetirsək, yetərincə dəhşətli faktlar göstərə bilərik. Məhz ABŞ hərbçilərinin kimyəvi silahdan, xüsusən də ağ fosfordan və tükənmiş urandan istifadə etməsi nəticəsində İraq əhalisinə böyük genetik ziyan dəyib.

Çoxsaylı araşdırmalara görə, 2004-cü ildə ABŞ-nin bombaladığı İraqın Fəllucə şəhərində uşaq ölümü, xərçəng və leykemiyanın kəskin artması, 1945-ci ildə Xirosima və Naqasakiyə atılan atom bombalarından sağ çıxanların bildirdiyi göstəriciləri üstələyir. Ağ fosfordan əlavə, ABŞ İraqda zənginləşmiş urandan, hərbi mühəndislərin mərminin nüfuzunu əhəmiyyətli dərəcədə artırdığı (şüalanma təxminən 4,5 milyard il yarım ömrünə malik olduğuna iddia edilir) radioaktiv elementdən geniş istifadə edib. ABŞ ordusunun məlumatına görə, İraqda mülki obyektlərə 29166 raket və bomba zərbəsi endirilib.

Son məlumatlara əsasən, təkcə 2023-cü ilin fevral ayında İraqda müxtəlif terror aktları nəticəsində ən azı 52 mülki şəxs güllələnib və ya öldürülüb. Əlbəttə ki, bütün bunlar müharibənin izləridir.

Suriyada da xalqı vətəndaş müharibəsinə təhrik edən ABŞ oldu. Bu müharibə ilə dövlətdə sabitlik pozuldu. Bir vaxtlar çiçəklənən Liviyada isə tamamilə xaotik və qeyri-mütəşəkkil siyasi sistem mövcuddur. Əslində isə bu ölkə vahid dövlət olmaqdan çıxıb. Baş verən toqquşmalarda ümumilikdə 63 mindən çox dinc sakin həlak olub, yüzlərlə mülki infrastruktur obyekti dağıdılıb.

Yaxın Şərq insan haqları qruplarının açıqladığı hesabata görə, ABŞ-nin Liviyada rejim dəyişikliyi uğrunda apardığı səkkiz aylıq müharibədə hərbi cinayətlər törətdiyinə dair güclü dəlillər var. 2011-ci il avqustun 9-da ABŞ hərbi qüvvələri Liviya paytaxtı yaxınlığında yerləşən Majer kəndinə endirdiyi zərbələr nəticəsində 33-ü uşaq olmaqla azı 85 mülki şəxs həlak olub. ABŞ qüvvələri Majerə iki hücum dalğası həyata keçirib, İlk bombardman yerli vaxtla saat 23:00 radələrində insanların əksəriyyətinin evlərində olduğu vaxt baş verib. Əvvəlcə ABŞ hərbi komandanlığı qəsəbəyə zərbələri qəti şəkildə rədd edib və Liviya hakimiyyəti insidentin insanlığa qarşı cinayət kimi tanınmasını tələb etdikdə, onların tələbinə məhəl qoyulmayıb.

Bu cinayətləri bir cümlədə Vaşinqtonun insan haqlarını sistematik şəkildə pozması, müharibələrin başlaması, mülki əhalinin qırğınları, zorakı transformasiya, birtərəfli sanksiyalar, inkişaf, həyat və sağlamlıq hüququnun kobud şəkildə pozulması, "sivilizasiyaların toqquşması" vəziyyətinin yaradılması, həbsdən sui-istifadə, işgəncələr, o cümlədən dini azadlıq və insan ləyaqətinin pozulması kimi cinayətlər sinfinə kvalifikasiya edə bilərik. Gerçək səbəb budur - ABŞ hər hansı bir ölkəni tam nəzarət altına almaq, orada vətəndaş müharibəsi yaratmaq, hakimiyyəti özünün təsiri altına keçirmək üçün bu texnologiyalardan hər zaman istifadə edir.

Son 8 il müddətində ABŞ-də 11 jurnalist qətlə yetirilib

ABŞ-də söz və mətbuat azadlığının boğulduğu da danılmaz həqiqətdir. Beynəlxalq təşkilatların son 8 il müddətində ABŞ-də söz və ifadə azadlığı, ümumilikdə insan haqları sahəsində durumun pisləşdiyini əks etdirən hesabatları bunu bir daha təsdiqləyir. Üzərində dayanılan 8 il iki fərqli prezidentin - Donald Tramp və Co Baydenin hakimiyyətlərini əhatə edir. Hakimiyyətlərin dəyişməsi neqativ tendensiyanın dayandırılmasını təmin etməyib.

"Sərhədsiz reportyorlar"ın hazırladığı illik indeksə görə, ABŞ son 8 ildə insan haqları və media azadlığının durumuna görə 49/45-ci yerlərdə dayanır. 2015-ci ildə 49-cu yerdə göstərilib, 2023-cü ilə qədər cəmi 4 pillə irəliləyə bilib.

Donald Tramp dövrü ilə Bayden hakimiyyəti dövründə ciddi fərq yoxdur: 46/45. Hesabatın şərh bölümündə deyilir: "Bayden hakimiyyəti dövründə ABŞ-də mətbuat azadlığının pozulması hallarında nisbi azalma olub. Lakin bir vaxtlar ifadə azadlığı modeli hesab edilən ABŞ-də media azadlığı qarşısındakı struktural maneələr qalmaqdadır".

Qeyd edək ki, ABŞ-nin yeri dünyada "demokratiya keşikçisi" kimi tanınan dövlətlər arasında ən pis göstəricidir. Almaniya (21), Fransa (24), Böyük Britaniya (26), Belçika və digərləri ABŞ-dən dəfələrlə öndədirlər.

Hesabatda qeyd edilir: "Birləşmiş Ştatlarda medianın hökumətin müdaxiləsi olmadan fəaliyyət göstərdiyi barədə təsəvvür formalaşdırılıb. Amma ölkənin məşhur KİV-i bir ovuc varlı şəxslərə məxsusdur. Partiya mediasına artan maraq onların obyektivliyini təhdid edir, mediaya ictimai inam aşağı düşüb".

Hesabatda o da qeyd edilib ki, son 8 il müddətində ABŞ-də 11 jurnalist qətlə yetirilib. Bəzi hesabatlarda ABŞ-də son 8 ildə qətlə yetirilmiş jurnalistlərin sayı 11 deyil, 14 nəfər göstərilib.

"ABŞ Mətbuat Azadlığı Böhranda" - adlı hesabatda qeyd edilir ki, bu ölkədə qısamüddətli həbs edilən, təqib olunan, təhdid alan jurnalistlərin sayı kəskin şəkildə artıb. Qətlə yetirilmiş, həbsə atılmış, təqib və təhdidlərə məruz qalmış jurnalistlərin əksəriyyəti qaradərilidir ki, bu da ABŞ-də milli-irqi ayrı-seçkiliyin nümunəsi kimi təqdim edilir, ümumilikdə insan haqları pozuntusu kimi qeyd edilir.

ABŞ hakimiyyəti təkcə yerli jurnalistləri deyil, həm də ölkədə akkreditasiya olunmuş xarici jurnalistləri də daimi təhdid və təzyiq altında saxlayır. 2020-ci ildə ABŞ "xarici jurnalistlər üçün vizaların idarə edilməsi" qanununu gündəmə gətirib. Əvvəllər 5 il üçün verilən jurnalist vizaları yeni qanuna görə 240 gün müddətinə endirilir. Bu, ABŞ-də akkreditasiya olunmaq üçün viza müraciəti edən xarici jurnalistləri daimi təhdid və təzyiq altında saxlayır. 2020-ci ildə 24 beynəlxalq təşkilat ABŞ administrasiyasına müraciət edərək bu qanunvericilik təşəbbüsünü geri götürməyə çağırıb. Lakin ABŞ administrasiyası bu çağırışlara heç bir reaksiya verməyib, onlara hörmətsiz davranıb. Bununla da növbəti bir neqativ siyasətini ortaya çıxarıb: ABŞ heç bir beynəlxalq təşkilatın (insan haqları və media təşkilatlarının) rəyinə diqqət yetirilmir, onlara hörmətlə yanaşmır.

Bütün bu faktlar ABŞ-nin "daxili demokratiyası"nın aynasıdır. Ağ Evin başqalarına "bəxş etdiyi" "demokratiyanın" heç "de"si özündə yoxdur.

Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"